*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2025*
*Səh. 257-265*

https://doi.org/10.62837/2025.1.257

**KÖNÜL İSGƏNDƏROVA**
*Sumqayıt Dövlət Universitetinin*
*Xarici dillər kafedrasının ingilis dili müəllimi,*
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent.*
konul.isgandarova@sdu.edu.az
**ORCID ID -0000-0001-8103-1623**

# ƏDALƏTLİ VƏ SƏMƏRƏLİ QİYMƏTLƏNDİRMƏDƏ MÜƏLLİMİN ROLU: MÜASİR MÜƏLLİMLƏR ÜÇÜN TƏLİMAT

**Xülasə.** Təhsildə qiymətləndirmə mövzusu daim müəllim tədqiqatçıları düşündürən mövzu olmuşdur. Məlumdur ki, metodika fənninin tədrisində ölçmə, dəyərləndirmə və qiymətləndirmə terminləri geniş istifadə olunur. Bu ifadələr arasında və onların tətbiqində fərqlər vardır. Məqalədə ilk öncə müəllimin müxtəlif rolları təhlil edilmiş və onların qiymətləndirmə prosesinə olan yanaşmaları barədə məlumat verilmişdir. Daha sonra, dünya ölkələrinin müxtəlif məktəblərinə nəzər yetirilərək daha fərqli yanaşmalar və qiymətləndirmə metodlarının tətbiqi araşdırılmışdır. Məqalədə qiymətləndirmənin səmərəli yolları və növləri şərh edilmişdir. Qiymətləndirmə vacibdirmi? Onun tətbiqi necə düzgün yerinə yetirilə bilər? Araşdırmamızda bu sualları cavablandırmağa çalışmışıq.

**Açar sözlər:** qiymətləndirmə, dəyərləndirmə, ölçmə, müəllimin peşə funksiyaları, məktəbdəki yanaşmalar, testlərin müxtəlifliyi.

**Keywords**: assessment, evaluation, measurement, teacher’s professional functions, approaches of schools, different kinds of tests.

**Ключевые слова**: оценивание, ценность, измерение, профессиональные функции учителя, подходы в школе, разновидности тестов.

**Müəllim müxtəlif rollarda.** Qiymətləndirmə, dəyərləndirmə həyatımızın hər bir sahəsində vardır. Biz gördüyümüz işləri, apardığımız təcrübələri, gündəlik baş verən hadisələri günün sonunda qiymətləndiririk. Bu qiymətləndirmələr bizim gələcək planlarımızı qurmaqda, bəzi dəyişikliklər etməkdə, yeni qərarlar verməkdə bizə stimul verir. Dəyərlərin və qiymətləndirmənin insan həyatına inanılmaz böyük təsiri vardır. Deməli, dəyər verən şəxsin zehni inkişaf səviyyəsi yüksək olmalı, digərini dərk etməkdə və qiymətləndirməkdə dürüst və dəqiq olmalıdır. Təhsilin hər pilləsində bu işi yerinə yetirən şəxs müəllimdir. Müəllim şagirddə elə keyfiyyətlər tərbiyə edə bilər ki, bunlar xoşbəxtliyə nail olmaq üçün zəruri amillər ola bilər. Bu baxımdan biz ilk növbədə müəllimin rollarını müəyyən edək. Müəllim kimdir? O, sinifdə hansı rollardadır?

İstər müxtəlif ixtisas sahiblərinin, istərsə də yazar və alimlərin müəllim haqqında fikirlərini paylaşmaqla müəllimin müxtəlif rollarda olması məsələsinə

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2025*
*Səh. 257-265*

diqqət edək. V. Şekspir həyatı səhnəyə, insanları bu səhnədəki aktyora bənzətmişdir. Bəs müəllim peşəsinə yiyələnən şəxs hansı rollarda ola bilir? İlk öncə müxtəlif şəxslərin müəllim haqqında deyilən sitatlarına nəzər yetirək. K.Marks deyirdi ki, "müəllim-tərbiyəçi olmaq üçün, tərbiyə olunmaq lazımdır", Marksa görə müəllim tərbiyə edən rolundadır. Voyskunskiy qeyd edirdi ki, "...biliyin həzm olunması üçün, onu yaxşı iştaha ilə yemək lazımdır", demək ki, burada müəllim "iştahaçan, iştahlandıran" funksiyasını yerinə yetirir. [1, s.66] M. Yaroşevski və A. Lipkinin apardığı eksperimenti yada salmaq yerinə düşərdi. Məktəbli yaşına çatmamış 4 uşaqdan ibarət qrupa bir tapşırıq verilir və onlar tapşırığı yerinə yetirən uşaqların mükafatlandırılacağını deyirlər. Üç nəfər tapşırığı yerinə yetirir, bir nəfər isə yox. Eksperimenti aparan şəxslər uşaqların dördünə də şirniyyat verirlər. Tapşırığı yerinə yetirə bilməyən uşaq əli konfetə dəyəndə ağlamağa başlayır. Bu eksperimentdən belə nəticəyə gəlmək olar ki, müəllim təhsilalanların gələcək taleyi üçün daha çox cavabdehdir. Eksperimentin nəticəsi olaraq müəllimi biz bu hissədə, uşaqlarda mənəvi prinsipə rəğbət oyadan rolunda görürük. [2, s.229]

Şəms Təbrizi müəllimi nəzakətli, yolgöstərən rolunda tanıdaraq yazırdı: "...müəllimin sözü ona görə xoşa gələn, könülə yatan və ürək oxşayandır ki, azdırıcı yox, yol göstərici, çaşdırıcı yox öyrədicidir." Göründüyü kimi burada müəllimin rolu digərlərinin həyatını istiqamətləndirməsində, onların həyata baxışının formalaşmasında əvəzsiz təməl qoyur. [2, s.230]

NASA astronavtı Krista Makalif deyir: "müəllimlik sənətinin əsas məqsədi gələcəyi dəyişmək üçün toxum səpməkdir." Demək ki, müəllim burada biliyin toxumunu səpən rolundadır. [10] Təhsil filosofu Con Deveyə görə, "Müəllim təkcə bilik ötürən deyil, həm də öyrənmə həvəsi yaradan bir liderdir". Yunan filosofu Sokrat yazırdı: " ...bir şam başqa bir şamı işıqlandırdıqda öz işığını itirmir. Eləcədə bilik paylaşdıqca böyüyür." Müəllimi ən vacib bilik paylaşan birisi kimi deyə bilərik ki, o, tələbələrində bilik çırağının qığılcımıdır. A. Eynşteyn deyirdi: "Əgər yaxşı bir müəllim olmasaydı, bu gün heç bir böyük insan olmazdı".[2, s.233] Deməli insanın formalaşmasında, həyat məqsədlərini tapmasında müəllimin rolu əvəzsizdir. Bütün bu mülahizələri qeyd etməkdə məqsədimiz müəllimin şagird həyatındakı rollarını müxtəlif bilik adamlarının dilindən nümunələr gətirməklə sübuta yetirməkdir. Müəllimi biliyin daşıyıcısı, biliyi ötürən, elmin sirrlərini açan əsas şəxs olması Böyük Nizaminin dilində alimə verilən dəyərdən görünür:

Qüvvət elmdədir başqa cür heç kəs
Heç kəsə üstünlük eyləyə bilməz
Hər uca zirvədən bilin ki fəqət
Alimin zirvəsi ucadır əlbət. [6]

Penny Ur, ingilis dili müəllimlərini dərs prosesində bir çox peşə funksiyalarını yerinə yetirdiyini vurğulayaraq bunu aşağıdakı kimi təsvir edir:

- Planner- planlaşdıran metodist müəllim, dərsin a-dan z-yə tədris planını, sinfin güşəsini, istifadə ediləcək vəsaitləri və s. təşkil edən,
- Manager – menecer (idarəçi) müəllim, müəllim yönümlü tədrisdə daha çox istifadə edilən funksiya,
- Activator-tələbələri fəaliyyətə, prosesə yönəldən, cəlb edən şəxs,
- Model-adətən dil daşıyıcısı olan əcnəbi müəllimi dərsə dəvət edərək şagirdləri onun tələffüzünə diqqət etmələri üçün, onunla ünsiyyət qurmaq üçün şərait yaradılır,
- Feedback provider- geri dönüş edən, şagirdləri qiymətləndirən, onları şifahi və yazılı dəyərləndirən müəllim,
- Supporter- dəstəkləyən, şagirdlərin fikirlərinə, düşüncələrinə, ideyalarına inamla yanaşan müəllim,
- Assessor-qiymət, dəyər və ölçü bildirən müəllim. Tələbələrin işlərini dürüst şəkildə həm şifahi, həm də yazılı formada qiymət verən funksiyasında olan şəxs,
- Motivator- motivasiya verən şəxs, gələcək planların qurulmasında ekstrinsik təsir bağışlayan müəllim,
- Fasilitator- işin hər mərhələsində köməkdar olan, izah edən məsləhət verən müəllim,
- Digər funksiyalarda- parent teacher-qayğıgöstərən, walking dictionary- gəzən lüğət (xüsusilədə dil dərslərində) və s. funksiyalarını yerinə yetirən müəllim. [3, s.17]

**Dünyanın müxtəlif məktəblərində qiymətləndirmə sistemi.**

İlk növbədə dünya orta təhsil sisteminə görə hər zaman ilklərdə yer tutan Finlandiyadakı məktəblərə qiyabi səyahət edək. Finlandiyada 9-cu sinfə qədər qiymətləndirmə prosesi yerinə yetirilmir. Onlar şagirdlər arasında yarış, rəqabət hissi yaratmağı məsədəuyğun hesab etmirlər, hər hansı həyat problemlərinə fərqli yollarla nəzər salmağı, bu problemlərin həlli yollarını tapmağı öyrəncilərə təşviq edirlər. Finlandiyada sual-əsaslı, layihə-əsaslı, problemi araşdırma yanaşmalarına daha çox üstünlük verilir. Onlarda qrup şəkilli işlər nəinki orta məktəblərdə, həmçinin universitetlərdə də üstünlük təşkil edir. Tapşırılan işlər qrupun bütün üzvləri arasında bərabər şəkildə bölünür və araşdırmaya başlanır. Əgər kimsə qrup işini gecikdirərsə və ya yerinə yetirmək istəməzsə, bu barədə onunla individual danışılır, başqa bir problemi varsa onu həll etməkdə yardımçı olurlar. Həmin şagirdi məktəbin psixoloquna yönəldirlər, valideynlərlə söhbətlər aparırlar, şagirdə hərtərəfli kömək edirlər ki, digərlərindən geri qalmasın. Erkən yaşlarda Finlandiyada qiymtləndirmənin aparılmamasının bir çox səbəbləri vardır, rəqabəti azaltmaq və öyrənməyə marağı artırmaq, tələbələrin fərdi ehtiyaclarını, bacarıq və inkişafı üzərində diqqət mərkəzləşdirmək, stressin qarşısını almaq və s. Lakin, müəllimlər

daim valideyn və tələbələrin özlərinə gördükləri iş, etdikləri irəliləyiş və inkişafları, həmçinin zəif tərəfləri barədə ətraflı şərhlər verirlər. [7]

Qeyd etmək lazımdır ki, Finlandiyada özəl məktəblər mövcud deyildir. Bu bir daha rəqabətin olmamasını sübut edir. Məktəblər müxtəlif fəaliyyət növləri ilə- məktəbdaxili və məktəbxarici oyunlar üçün avadanlıqlarla, şagirdlərin bütün ehtiyaclarını qarşılayacaq materiallarla, təhsilin müxtəlif metodlarla yerinə yetirilməsini reallaşdırmaq üçün otaqlarla təchiz ediliblər. Hər məktəbin həyətində oyun meydançaları, parklar vardır. Hava soyuq olarsa məktəbdaxili tennis, voleybol, boylinq, hətta kompüter oyunları oynamaq istəyən öyrəncilər üçün şərait vardır. Gün ərzində, mütləq şəkildə, müəyyən olunmuş vaxt ərzində bütün tələbələrə sərbəstlik verilir ki, bunlardan istədikləri kimi istifadə etsinlər. Oyun zamanı öyrəncilər müşahidə edilir, müəllimlər də onlarla birgə fəaliyyətə qoşulur.

Orta təhsilin təşkili və əldə olunan mükəmməl nəticələrə görə Finlandiya uzun illərdir ki, dünya birinciləri sırasında yer alır. Bunun səbəbləri çoxdur. İlk növbədə müəllim olmaq, bu peşəyə yiyələnmək üçün xüsusi təlimatlar yerinə yetirilməlidir. Hətta deyimə görə, Finlandiyada vəkil və ya həkim olmaq müəllim olmaq qədər çətin deyildir. Burada valideynlər, məktəb və müəllim seçmək üçün heç bir problem yaşamırlar, onlar deyir ki, biz müəllimlərin işinə qarışmırıq, biz onlara etibar edirik. Finlandiyada müəllimlərə böyük etimad göstərilir və onlara qiymətləndirmə prosesində tam sərbəstlik verilir.

Dünya məktəbləri sırasında ilklərdə olan digər ölkələrdən Sinqapuru nümunə göstərə bilərik. Sinqapur məktəblərində yalnız akademik biliklər deyil, real həyat problemləri üzərində necə iş aparmaqları, tənqidi düşüncə ilə bu problemlərə yanaşmanı yerinə yetirmələrinə görə qiymətləndirilirlər. Məsələn, riyaziyyat fənnində tapşırıq, gündəlik maliyyə məsələsi, ölkənin hər hansı bir sahəsində görülən işlərlə bağlı hesabatlar ola bilər.

Yapon xalqı mehriban, alicənab olmaları ilə seçilir, buna səbəb onların unikal təhsil sistemlərinin olmasıdır. Məktəblərdə dərslər aprel ayında başlayır, bunun səbəbi çiçəklənmə dövrünün bu ayda olmasıdır. Burada da ibtidai siniflərdə qiymətləndirmə rəqəmlərlə yerinə yetirilmir. Yaponiyada davranış və əxlaq qiymətləndirilməsi adlı maraqlı qiymətləndirmə növü var, bu təhsil sisteminin bir hissəsi hesab edilir. Məktəblərdə əməkdaşlıq, hörmət, sosial məsuliyyət kimi göstəricilər qiymətləndirmə prosesində ciddi nəzərə alınır. Məktəblilər öz sinif otaqlarını təmizləyir, nahar edərkən müəllimlərlə birgə stol arxasına əyləşirlər. Tələbə-müəllim münasibətlərinin formalaşmasında bir çox fəaliyyətlər yerinə yetirilər. Universitetlərə qəbul qazanmaq üçün NCT (National Center Test) imtahanı verirlər. Bu imtahanı xalq arasında çətinliyinə görə "examination hell"(imtahan cəhənnəmi) adlandırırlar. Lakin, qəbul qazandılarsa, tələbəlik illəri çox səmərəli, məqsədli və maraqlı keçdiyindən bu səfər bu dövrü "vacation before work" (iş öncəsi tətil) adlandırırlar.

Avstraliyada müəllimlər öyrəncilər üçün fərdi öyrənmə hədəfləri təyin edirlər, tələbələrin əldə etdikləri nailiyyətlər qoyulan hədəflərlə müqayisə edilərək qiymətləndirilir. Bu yanaşma hər bir tələbənin ayrılıqda fərdi inkişafına fokuslanır.

Estoniyada qiymətləndirmə prosesində rəqəmsal alətlərdən geniş istifadə edilir. Şagirdlər onlayn platformalarda testlər həll edir, nəticələr isə dərhal elan edilir. Bu proses vaxta qənaət etmək baxımından hamı üçün əlverişlidir.

Fransada universitetə qəbul qazanan tələbələrin ən yaxşı halda 50 faizi bu universitetləri bitirə bilir.

**Qiymətləndirmənin müxtəlif növləri.**

Göründüyü kimi müxtəlif ölkələrdə qiymətləndirmə sistemi fərqli yanaşmalarla yerinə yetirilir. Qeyd olunan dövlətlərin təcrübəsi göstərir ki, məktəblərdə qiymətləndirmə fərqli meyarlarda reallaşdırılır. Bəzi ölkələrdə müəyyən yaş həddinə qədər rəqəmli qiymətləndirmə aparmasalarda, dünyanın bir çox ölkələrində ölçmə və qiymətləndirmə ilk vaxtlardan yerinə yetirilir. Qiymətləndirmək ərəb mənşəli söz olaraq, Azərbaycan dilinin izahlı lüğətində belə təsvir edilmişdir: "Bir adamın, şeyin və ya işin əhəmiyyətini, keyfiyyətini, dəyərini düzgün başa düşüb təqdir etmək, ona qiymət vermək, dəyərləndirmək". [ 4 s.166]

İngilis dilində "**assess**" –qiymət sözü isə latın mənşəli söz olub- **assidere** sözündən yaranmışdır, mənası hakimlik etmək kimi verilmişdir (to sit as a judge). [8] Bəzi mənbələrdə isə bu söz **"to sit beside**"- yanında əyləşmək mənasında verilmişdir. Yəni, assess sözünün mənasını tələbəyə nə isə etmək deyil, tələbənin yanında olmaq, tələbə üçün nəsə etmək kimi izah etməyə çalışırlar. Qiymətləndirmənin tarixinə nəzər yetirsək məlum olur ki, təhsil sahəsində ilk dəfə Çində aparılmışdır. O dövrdə imtahanlar şifahi aparılırdı. Lakin, yazılı qiymətləndirilmə isə ilk dəfə Kembric imtahanlarının təşkilində istifadə edilmişdir. [9] Zaman keçdikcə cəmiyyətin hər bir sahəsində dəyişikliklər getdiyi kimi qiymətləndirmə üsulları da müxtəlif dəyişikliklərə məruz qalmışdır. Bəzi ölkələrdə təhsilin məzmunundan çox qiymətləndirmə sahəsində daha çox dəyişiklik aparılmışdır. Buna misal olaraq İngiltərənin təhsil proqramında son 60 ildə cüzi məzmun islahatı aparılmış, lakin, qiymətləndirmədə xeyli dəyişikliklər edilmişdir. Keçən əsrin əvvəllərində qiymətləndirmə məktəblərdə test üsulu ilə aparılırdısa, sonralar fənlərin məzmununu mənimsəmək deyil, biliklərin sənaye və texnologiyaya tətbiqi, ideyaların həyata keçirilməsinə bağlı formada qiymətləndirilirdi. Rusiya və ətraf ölkələrdə müxtəlif dövrlərdə qiymətləndirmə, sözlə "əla, yaxşı, kafi, pis, çox pis" kimi və ya "aşağı, orta, yaxşı" səviyyə kimi göstərilirdisə, sonralar bal sisteminə keçid edilir və qiymət şkalası ilə bilik ölçülməyə başlanır. Hal-hazırda bu şkala dünya ölkələrində müxtəlif formalarda təyin edilmişdir. Qiymətləndirmənin hərf və ya rəqəmlərlə ölçülməsi prosesi psixometrika sahəsində ixtisaslaşmış insanlar tərəfindən dəqiq şəkildə təyin edilir.

Qiymətləndirmə fəlsəfəsi, təhsildə ölçü, dəyər və qiymətləndirmə anlayışının özü daxil olmaqla keyfiyyətin idarə olunması və yüksəldilməsi istiqamətində aparılan iş kimi anlaşılır. Ölçmə kəmiyyət vasitəsilə keyfiyyəti təyin etmək deməkdir. təhsildə müxtəlif ölçü vasitələri var, bunlara misal olaraq: ballar, xal, faiz, səviyyəni və s. misal göstərmək olar. Dəyərləndirmə dedikdə isə görülən işə dəyər vermək, şərh etmək, tələbənin bacarığı və nailiyyətləri haqqında mühakimə etmək kimi anlayırıq. Dəyərləndirmə motivasiyaedici olmalı, tələbənin nəyi əldə etdiyini və nəyi mənimsəmədiyini anlamaqda yardımçı olaraq, sonrakı görüləcək işlərin planlamasında mühüm rol aynamalıdır. Qiymətləndirmə, tələbənin biliyi haqqında məlumat toplamaq, ölçü götürmək, tələbənin öyrəndiklərini dəqiq təyin etmə prosesidir. Qiymətləndirmənin 3 əsas növü vardır: diaqnostik, formativ və summativ, bundan əlavə bir çox qiymətləndirmə növ və funksiyaları mövcuddur.

**Diaqnostik** qiymətləndirmə müəssisədaxili yerinə yetirilən bir qiymətləndirmə növüdür. Adından göründüyü kimi, tələbənin biliyini "diaqnoz" edir, yəni onun nəyi bildiyini və nəyi öyrənməyə ehtiyacı olduğunu müəyyən etmək üçün təşkil edilir. Təhsilin istənilən mərhələsində, istənilən vaxtda yerinə yetirilə bilər. Bu qiymətləndirməni müxtəlif üsullarla aparmaq olar, məsələn, müşahidə vasitəsilə, tapşırıqlarla, valideynlərlə əlaqə saxlamaqla da ola bilər. Müəyyən meyarlar təyin edilir və təlim nəticəsinin hansı vəziyyətdə olduğu həm müəllimə, həm də öyrənciyə məlum olur. Bu gələcəkdə görüləcək işlərin planlaşdırılmasına çox kömək edir. Valideynlərlə mütəmadi əlaqə saxlamaq, tələbə haqqında geniş məlumat toplamaq da prosesə yardımçı olur.

**Formativ** qiymətləndirmə tələbənin potensialını üzə çıxaran qiymətləndirmədir, onların zəif və güclü tərəfləri, nəyi öyrətmək lazım gəldiyi müəllimə məlum olur. Bu qiymətləndirmə öyrənmə üçün, öyrəncinin inkişafı üçün yerinə yetirilir. Mərhələli şəkildə, mövzunun müəyyən hissəsi tədris edildikdən sonra həmin bölmənin test edilməsi, yəni yoxlanması prosesidir. Formativ qiymətləndirmədə - "Öyrənci haradadır? Öyrənci hara getməlidir? Necə getməlidir və lazımı biliyi əldə edib etmədiyini necə anlamalıdır?" suallarının cavabı məlum olur.

**Summativ** qiymətləndirmə ayrılmış vaxt ərzində təyin olunmuş biliyin tam mənimsənilməsini yekun olaraq yoxlamaq üçün həyata keçirilir. Müxtəlif formalarda yerinə yetirilə bilər. Bunun nəticəsi hər tələbənin ümumi akademik göstəricilərinə təsir edir. Formativ qiymətləndirmə öyrənmə prosesinə onun inkişafına, təkmilləşməsinə və s. bir başa təsir edirsə, summativ qiymətləndirmədə artıq əldə olunmuş biliklər imtahan, layihə, dissertasiya işi, testlər vasitəsilə yekun nəticəyə gəlmə, rəsmi qiymətləndirmə ilə yerinə yetirilir və müxtəlif meyarlarla ölçülür.

Qiymətləndirmənin digər növlərindən olan **qeyri-formal** qiymətləndirmə, gündəlik yerinə yetirilən, hər bir dərsdə tətbiq olunan forma olaraq, tələbənin davranışını, bədən dilini, etdikləri seçimləri, uğurları, yanaşmaları, düşüncələrini

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2025*
*Səh. 257-265*

qiymətləndirir. **Normativ əsaslı** qiymətləndirmə də isə bir tələbənin nailiyyətləri qrupun göstəriciləri ilə müqayisə edilərək yerinə yetirilir. Bu növdən istifadə edən təhsil müəssisəsi həmin tələbəni qrupun göstəricilərindən geri qaldığından və ya irəli getdiyindən asılı olaraq, onu digər uyğun qrupa yerləşdirir. **İpsativ** qiymətləndirmədə isə tələbənin özünün əvvəlki və sonrakı nəticələri müqayisə edilir, əldə edilən təkmilləşmə nəticəsinə əsasən bu proses yerinə yetirilir. Qey edilən qiymətləndirmə növü rəqabət prinsipi daşımır, əksinə şəxsin inkişafına motivasiyaedici təsir göstərir. Tələbə öz irəliləyişlərini görüb daha çox həvəslənir. **Davamlı** qiymətləndirmə, qeyri-formal qiymətləndirmə kimi bütün kurs boyu aparılır, daha ədalətli yekun qiymətin formalaşmasına dəlalət edir. **Portfolio** qiymətləndirmə bir tələbənin yarım il və ya bir il ərzində gördüyü işlərin, nailiyyətlərin toplusu deməkdir. Bu adətən həqiqi və ya rəqəmsal qovluqlarda toplandığına görə belə adlanır. Sənədlər toplusu, yazılar, layihələr, qovluqda olan hər bir şey tələbənin qiymətini müəyyən edir. **Cütlüklərin** və ya **həmyaşıdların** biri-birini qiymətləndirməsi qarşılıqlı öyrənməni inkişaf etdirir. Qeyd olunan prosesdə tələbələr bir-birinə dəstək olmağı, müsbət təsir bağışlamağı, bir-birindən öyrənməyi öyrənirlər. Belə qiymətləndirmə zamanı müəllimlər daim tələbələrə nəzarət edərək onları düzgün istiqamətləndirməklə, doğru vərdişlərin formalaşmasına təsir edir. Digər qiymətləndirmə növü **özünüqiymətləndirmə** adlanır. Şagirdlərin öz bilik və bacarıqlarını qiymətləndirməsi nəticəsində əldə etdikləri məlumat onların öyrənmə yolunu göstərən bir xəritə kimidir [5]. Özünüqiymətləndirmə psixoloqlara görə hamı tərəfindən hər zaman yerinə yetirilməli olan bir vərdiş olmalıdır. Onun vasitəsilə insanlar özlərini, gördükləri işləri qiymətləndirərək daha yaxşı və tez nəticələr əldə edə bilərlər. Bu baxımdan təhsildə də onun istifadəsi hər zaman müsbət nəticələr verir. **Autentik-həqiqi** qiymətləndirmə şagirdlərin öz biliklərini real dünyada necə tətbiq etdiklərini qiymətləndirir. Onlarda tənqidi düşüncəni formalaşdırır. Şagirdlər sərbəst şəkildə fikir söyləyərək real həyat situasiyalarını müzakirə etməyi və nəticə əldə etməyi öyrənirlər. Bununla yanaşı müxtəlif test formaları vardır ki, birbaşa şagird qiymətləndirməsinə yönəlir. **Yerləşdirmə** testləri (ingilis dilində-placement) adətən yeni gələn şagirdi hansı sinfə yerləşdirilməsini aydınlaşdırmaq üçün edilir və qiymətləndirmə aparıldıqdan sonra şagirdin səviyyəsinə uyğun qrupa yerləşdirilir. **İrəliləyiş və ya proqres** tesləri müxtəlif intervallarla aparılaraq şagirdin nailiyyətləri və həmçinin təlim prosesinin effektivliyi ölçülür. **Nailiyyət tesləri** (ingilis dilində - achievement) adətən ilin və ya kursun sonunda aparılaraq şagirdin nəyə nail olduğu qiymətləndirilir. **Kompetensiya və ya səriştə** testləri şagirdin müəyyən sahədə və ya fənn üzrə əldə etdikləri bacarıqlar, təcrübə, uğurları qiymətləndirilir. Məsələn, komanda işi, liderlik, xüsusi bacarıqlar, dil bacarığı, riyazi bacarıqlar və s. dəqiq şəkildə qiymətləndirilir.

**Nəticə.** Göründüyü kimi, qiymətləndirmənin müxtəlif növləri mövcuddur və hər biri tədris prosesində mühüm rol oynayır. Effektiv təşkil olunmuş qiymətləndirmə

təkcə şagirdlərin bilik və bacarıqlarını ölçməklə kifayətlənmir, həm də onların şəxsi inkişafına töhfə verir. Bu yolda müəllimin düzgün, ədalətli və səmərəli qiymətləndirməsi üçün müxtəlif prinsip və metodlara müraciət etməsi, fərqli funksiyaları, rolları bilməsi əsas vacib məsələlərdəndir. Müxtəlif və balanslı qiymətləndirmə üsullarının istifadəsi şagirdlərin real bacarıqlarını daha dəqiq əks etdirməyə, onların motivasiyasını artırmağa və ümumi təhsil keyfiyyətini yüksəltməyə kömək edəcəkdir. Nəticə etibarı ilə, ədalətli və səmərəli qiymətləndirmə uğurlu şagirdlər yetişdirmək və daha ədalətli bir təhsil sistemi qurmaq üçün əsas amillərdən biridir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Войскунский А. «Я говорю, мы говорим...», М., 1982, 140 стр.
2. A. Mirzəcanzadə, İxtisasa Giriş. Bakı, 1990. 368 s.
3. Penny Ur. A Course İn English Language Teaching. Cambridge University Press, 2012, 325 p.
4. Orucov Ə., Abdullayev B., Rəhimzadə N. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə. III cild. Bakı, "Şərq-Qərb", 2006, 672 səh.
5. Huerta-Macias, A. (1995). Alternative assessment; Responses to commonly asked questions. TESOL Journal, 5, 1, 8-12.
6. https://azedutech.wordpress.com/2012/04/07/quvv%C9%99t-elmd%C9%99dir/
7. https://www.youtube.com/watch?v=ceWeIKLfgv8&t=138s
8. https://www.vocabulary.com/dictionary/assess#:~:text=Assess%20comes%20from%20Anglo%2DFrench,evaluate%2C%20measure%2C%20evaluate%2C%20value
9. https://edu.gov.az/upload/file/M-Merdanov-Qiymetlendirme.pdf
10. https://www.history.com/news/christa-mcauliffe-challenger-teacher-space

**K. İsgandarova**

**The role of the teacher in fair and effective assessment: A guide for the modern teacher**

**Abstract**

As observed, there are different types of assessment, and each of them plays an important role in the educational process. Effectively organized assessment is not only enough to measure the knowledge and skills of students, but also contributes to their overall academic and personal development. İn this article, we explored the teacher's role in ensuring fair and effective assessment by examining different approaches, methods, and principles. We highlighted the importance of objectivity,

transparency, and inclusivity in assessment practices to create a supportive learning environment. Ultimately, fair and effective assessment is one of the main factors in raising successful learners and building a more equitable education system.

**К. Искендерова**

**Роль учителя в справедливой и эффективной оценке: руководство для современных учителей**

**Аннотация**

Как вы видите, существуют различные типы оценки, и каждый из них играет важную роль в процессе обучения. Эффективно организованная оценка не только измеряет знания и навыки учащихся, но и способствует их личностному развитию. На этом пути учителю важно применять различные принципы и методы, а также осознавать различные функции и роли, чтобы обеспечить правильную, справедливую и эффективную оценку. Использование разнообразных и сбалансированных методов оценки поможет более точно отразить реальные способности учащихся, повысить их мотивацию и улучшить общее качество образования. В конечном итоге, справедливая и эффективная оценка является одним из ключевых факторов подготовки успешных учащихся и построения более справедливой системы образования.

**Rəyçi: dos. Nəcəfova Şəfiqə**